Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
...İBƏ 2023



# MƏHƏBBƏTİ ƏFSANƏYƏ ÇEVİRƏN BƏSTƏKAR



Arif Məlikov tək simfonik əsər yazmayıb. Onun üç baleti var, 40-a yaxın filmə, tamaşalara musiqi yazıb. 27 cilddən ibarət külliyyatı Prezidentin sərəncamı ilə çap olunub.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Mənim baletim dünyanın 64 teatrında tamaşaya qoyulub", - deyə qürurla söyləyə bilən yeganə müasir bəstəkar idi Arif Məlikov. 1961-ci ildən bəri onun "Məhəbbət əfsanəsi" baleti dünya səhnələrini dolaşıb. Nəhayət, yarım əsrdən çox fasilədən sonra dünya klassik musiqisinin bu şah əsəri Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Bakı səhnəsinə qayıdır. Sentyabrın 18-i və 19-da Heydər Əliyev Sarayında "Məhəbbət əfsanəsi" baletinin təqdimatı Milli Musiqi Günündə əsl bayram əhval-ruhiyyəsi yaşatmaqla bərabər, müəllifinin 90 illik yubileyinə (sentyabrın 13-ü Arif Məlikovun doğum günüdür) layiqli töhfə olacaq.

### O İNSANLAR HAMISI GETDİ...

"Arif Məlikovla bağlı o qədər xatirələrimiz var ki... Hansını danışaq?", - deyə sənət yoldaşları tarixi təqdimata sevinərək görkəmli bəstəkarı məhəbbətlə anırlar.

Əməkdar İncəsənət xadimi, professor Məmmədağa Umudov xatırlayır: "Arif Məlikovun ən yaxın həmkarı və ailə dostlarından olmuşam. Mən Konservatoriyaya daxil olanda Soltan Hacıbəyovun sinfində oxuyurdum. Bir ay sonra o, dünyasını dəyişdi. Məni Arif Məlikovun sinfinə göndərdilər. Bir neçə gün dərsə getmədim. Dərsə ilk dəfə gələndə "Nə üçün gəlməmisən, get, prorektordan icazə al, yoxsa auditoriyaya buraxmayacağam", - deyə bildirdi. Bu hadisə mənə dərs oldu. Ondan sonra bircə gün də dərs buraxmadım. Sonradan dostlaşdıq, hətta ailəvi dost olduq. Birlikdə çox qastrollara çıxmışıq".

### BƏSTƏKARLIQ MƏKTƏBİNİN SONUNCU MOGİKANI

Bəstəkar xatırlayır ki, Arif Məlikovun "İki qəlbin dastanı" baleti Daşkənddə nümayiş olunanda onu da dəvət edib: "Maestro Niyazi ilə getmişdik. Birlikdə o qədər şəkillərimiz var ki... 50 illik yubileyini də "Moskva" hotelində qeyd elədik. Mən, Niyazi, Arif Məlikov - birlikdə şəkil çəkdirdik. Onun ad günlərini hər il adətən Nardarandakı bağında qeyd edərdik. Rəhmətlik Adil Bəbirov, Ramiz Mirişli və digər sənət adamları və ziyalılar gələrdi. O dövr Azərbaycan bəstəkarlıq məktəbinin qızıl dövrü idi. Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov, Cövdət Hacıyev, Tofiq Quliyev vardı. Heyf ki, o insanlar hamısı getdi. Arif müəllimi sonuncu mogikan adlandırmaq olar. O gedəndən sonra bizim bəstəkarlıq məktəbi yetimləşdi".

M.Umudov müəlliminin şöhrəti dünyanı dolaşan "Məhəbbət əfsanəsi"ni qürur hissi ilə xatırlayır: "Tək SSRİ miqyasında yox, həm də dünyada "Böyük teatr" truppası birinci truppa sayılır. Bu truppanın repertuarında Azərbaycan bəstəkarlarının əsərlərindən daimi qalan Arif Məlikovun "Məhəbbət əfsanəsi" idi. Baletin xoreoqrafı Yuri Qriqoroviç məhz bu baleti Sankt-Peterburqun "Mariinski" Teatrında səhnələş-dirəndən sonra populyarlaşdı və onu "Böyük Teatr"a baş baletmeyster gətirdilər. Bu əsərdə kimlər yox idi: Nazim Hikmət, Niyazi, Arif Məlikov, Virsaladzenin rəssamlıq tərtibatı, musiqi və rəqslərin harmoniyası... Ancaq Arif Məlikov narazı idi. O, baletinin Azərbaycan truppası tərəfindən qoyulmasını istəyirdi. Sağlığında Sverdlovsk, Mariinski teatrları Bakıya qastrola gələrək baleti nümayiş etdirmişdilər. Təəssüf ki, bizim truppa tərəfindən səhnəyə qoyulmadı".

### ARİF MÜƏLLİMİN ƏLİ NƏYƏ TOXUNUBSA...

"Konservatoriyanın bəstəkarlıq fakültəsinə daxil olanda Arif Məlikov "orkestrovka" üzrə mənim müəllimim oldu", - deyə Xalq artisti Faiq Sücəddinov xatırlayır: "Sonra Estrada Simfonik Orkestrinin bədii rəhbəri kimi çalışanda onun "Dağlar" mahnısını aranjeman etdim. Mahnını Akif İslamzadə oxuyurdu. Əsərlərini pianoda çalmaq üçün mənə tez-tez müraciət edirdi. Sonradan Arif müəllimin bir neçə mahnısını aranjeman etdim. Bizim yaxın ünsiyyətimiz vardı. Musiqi ilə bağlı qızğın müzakirələrimiz olurdu". F.Sücəddinov müəlliminin kino və tamaşalar üçün yazdığı musiqiləri yüksək sənət inciləri kimi dəyərləndirir: "26 Bakı komissarı"na yazdığı musiqi möhtəşəm idi. Ümumiyyətlə, Arif müəllimin bu səpkili musiqiləri əsl sənət əsərləridir. Onun "Məhəbbət əfsanəsi" baleti isə bütün dünyada populyar idi. Elə tək bu əsər müəllifi haqqında hər şeyi deyir".



### BƏZƏN DEYİRDİLƏR Kİ, XASİYYƏTİ AĞIRDIR...

"Tələbə vaxtı Arif müəllimin assistenti, sonra aspirantı olmuşam. Baş müəllim, dosent, professor vəzifəsinə qədər yüksəlmişəm. 30 ilə yaxın bəstəkarlıq sinfində birgə çalışmışıq", - deyə Musiqi Akademiyasının bəstəkarlıq kafedrasının professoru Ceyhun Abdullayev xatırlayır: "Arif müəllimlə bir dəfə ünsiyyətdə olan insan nə qədər enerji alır və bu onun üçün həyatda unudulmaz gün olur. Təsəvvür edin ki, bizim 30 il müddətində nə qədər xatirələrimiz var. Onun kimi dünyada ikinci bəstəkar tapmaq çətindir. Çünki elə bir bəstəkar yoxdur ki, hələ sağlığında yazdığı balet dünyanın aparıcı ölkələrinin səhnəsində oynansın. Bu, bizim üçün böyük qürur mənbəyidir. Arif müəllim Qara Qarayevdən dərs almışdı. Qara Qarayevin müəllimi Şostakoviç, onun müəllimi Lev Şteynberq olub. Bu ənənə Bethovenə qədər gedib çıxır. Bizim bəstəkarlıq məktəbinin böyüklüyü də ondadır - həm Şərq, həm də Qərb mədəniyyətinin köklərinə bağlıdır". C.Abdullayev deyir ki, Arif Məlikovla tək tələbə-müəllim yox, həm də ata-oğul, sirdaş olublar: "Arif müəllim mənəviyyatsız, çirkablı insanları yaxına buraxmırdı. Bəzən deyirdilər ki, onun xasiyyəti ağırdır. Amma elə deyildi, o insanlıqda da, müəllimlikdə də təmiz idi. O həm də sözünü deyə bilən bir qəhrəman idi. 20 Yanvar hadisələrində Qorbaçova cəsarətlə "Sizin əliniz mənim millətimin qanına batıb" deyə bildi. Sonra o, DTX-nın arxivindən əldə etdiyi sənədlər əsasında "Mən ittiham edirəm" adlı sənədli kitab yazdı. 75 illiyində onun rəsm sərgisi də keçirilmişdi. Həmin illər musiqi yazmırdı. "Xalqıma, millətimə xidmət edirəm" deyirdi. Arif müəllim həm də yaxşı rəssam idi. 20 Yanvarla bağlı çəkdiyi rəsm əsərində qan damcıları süzülən ürək çəkmişdi. Onun hisslərinə nə yaxın idisə, onu sənəti ilə göstərməyə çalışırdı".

C.Abdullayevin fikrincə, Arif Məlikov kimi sənətkarları tək yubileydən-yubileyə deyil, tez-tez xatırlamaq lazımdır.



Məmmədağa Umudov



Faiq Sücəddinov



Ceyhun Allahverdiyev

